

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 74 (23.236)

*23 aprel 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## 2019-cu ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər "Ailə təsərrüfatları ili" elan olunmuş 2019-cu ilin ilk rübündə də davam etdirilmiş, yüksək nəticələr qazanılmışdır.

İnkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 2019-cu ilin yanvar-mart aylarında 535 milyon 968 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 1174 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,4 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 53,7 faiz təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-mart aylarında sənaye məhsulu 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,4 faiz, nəqliyyat sektorunda yük daşınması 2,3 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz artmışdır.

**Makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | 2019-cu ilin yanvar-mart ayları, faktiki | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul, min manat | 535 968,4 | 100,8* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 1 174,3 | 101,5 |
| Sənaye məhsulu, min manat | 246 510,0 | 101,2* |
| Əsas kapitala yönəldilən vəsaitlər, min manat | 188 714,0 | 95,7 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 28 530,1 | 102,4* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 3 433,0 | 102,3 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 13 102,2 | 103,3 |
| o cümlədən mobil rabitə, min manat | 10 431,0 | 101,6 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 307 738,6 | 100,6* |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 44 618,2 | 100,3* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 65 956,2 | 107,5 |
| o cümlədən ixrac | 53 423,9 | 100,2 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 433,2** | 103,1 |

*) müqayisəli qiymətlər üzrə
**) yanvar-fevral ayları

Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması və artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

### Sənaye

Muxtar respublikada müasir sənaye müəssisələrinin yaradılması, yeni məhsul növlərinin istehsalının həyata keçirilməsi bu sahədə dinamik inkişafı təmin etmişdir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada 246 milyon 510 min manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1,2 faiz üstələmişdir.

Sənaye məhsulu istehsalının 96,3 faizi malların, 3,7 faizi isə xidmətlərin payına düşmüşdür. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 93 faiz təşkil etmişdir.

*Sənaye məhsulu istehsalının dinamikası, min manat*




2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 3 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 35 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilir.

Sənayenin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2019-cu ilin yanvar-mart aylarında 4 milyon 230 min manat kredit verilmişdir.

Sənayedə istehsalın həcminin artması nəticəsində 2019-cu ilin ilk rübündə 41 milyon 301 min ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

### Hərbi quruculuq

Muxtar respublikada ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilir.

2019-cu ilin yanvar-mart aylarında Naxçıvan şəhərində qərargah binasının tikintisi başa çatdırılmış, hərbi zavodun və mərkəzi hərbi xəstəxananın tikintisi davam etdirilir.

Babək rayonunda iki əsgəri-məişət kompleksi istifadəyə verilmiş, qərargah binasının, start komanda, yanacaqdoldurma, texniki qulluq, texnikaların yuyulması, texniki nəzarət, təmir və texniki xidmət məntəqələrinin, avtomobil dayanacağının tikintisi davam etdirilir.

Culfa rayonunda Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilmiş, Babək və Şahbuz rayonlarının hər birində üç anqarın tikintisi davam etdirilir.

Kəngərli rayonunda "N" hərbi hissədə yaşayış binasının tikintisi davam etdirilir.

Şərur rayonunda Daxili Qoşunların "N" hərbi hissəsində infrastruktur obyektlərinin və 3 saylı Sərhəd dəstəsi binasının tikintisi davam etdirilir.

### Tikinti-quruculuq və su təchizatı tədbirləri

Ümumi inkişafın təmin edilməsində vəsait qoyuluşları mühüm rol oynayır. Bu istiqamətdə muxtar respublikada 2019-cu ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 188 milyon 714 min manat vəsait yönəldilmişdir. Vəsait qoyuluşlarının 176 milyon 543 min manatı və ya 93,6 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada 34 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 145 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2019-cu ilin ilk rübündə 2 kənd mərkəzi istifadəyə verilmiş, 2 kənd mərkəzinin inşası davam etdirilmiş, 7 kənd mərkəzinin inşasına başlanılmışdır.

Muxtar respublikada 1 yaşayış binasının tikintisi başa çatdırılmış, 6 yaşayış binasının tikintisi, 3 yaşayış binasının yenidən qurulması davam etdirilmiş, 1 yaşayış binasının yenidən qurulmasına başlanılmışdır.

Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi davam etdirilmiş, Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisinə başlanılmışdır.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmişdir. 2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 94 min 643 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da bir il öncəki göstəricidən çoxdur.

### Kənd təsərrüfatı və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaratmışdır.

Üzümçülüyün inkişafı məqsədilə yerli resurslardan istifadə olunmaqla üzüm bağlarının salınması davam etdirilmişdir. Bundan əlavə, yaz əkinlərinin aparılması üzrə dəstəkləyici tədbirlər həyata keçirilir.

Muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə Şərur rayonunun Yuxarı Aralıq, Babək rayonunun Nehrəm kəndlərinin hər birində bir soyuducu anbarın yaradılması, Şərur rayonunda Cəlilkənddə və Sərxanlı kəndində hər birində bir soyuducu anbarın genişləndirilməsi davam etdirilmiş, Çomaxtur kəndində soyuducu anbarın yaradılmasına başlanılmışdır. Bundan əlavə, Şərur rayonunun Ələkli kəndində istixana təsərrüfatının yaradılması davam etdirilmiş, Ordubad rayonunun Qoşadizə kəndində istixana təsərrüfatının yaradılmasına başlanılmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 293-ü 2019-cu ilin yanvar-mart aylarında olmaqla, cəmi 2668 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2019-cu ilin ilk rübündə 52 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Bu dövr ərzində məhsul istehsalçıları 7079,2 ton mineral gübrə ilə təmin olunmuşlar.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı cari ilin ilk rübündə də diqqətdə saxlanılmış, 5 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə yanvar-mart aylarında 1 milyon 627 min 800 manat dəyərində kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 47,8 faiz çoxdur.

Muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Süni Mayalanma Mərkəzinin yaradılması davam etdirilir.

2019-cu ilin ilk rübündə heyvandarlıq təsərrüfatlarında 2325 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 2956 baş sağlam bala alınmışdır. 1 aprel 2019-cu il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 121 min 230 baş, qoyun və keçilərin sayı 754 min 918 baş olmuşdur ki, bu da 1 aprel 2018-ci il tarixə olan göstəriciləri 1,6 və 1,8 faiz üstələmişdir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6224,9 ton ət, 12833,8 ton süd istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 və 2,3 faiz çoxdur.

Muxtar respublikada arıçılığın inkişafının stimullaşdırılması, kiçik biznesin dəstəklənməsi və kənd yerlərində məşğulluğun təmin edilməsi üzrə də mühüm tədbirlər həyata keçirilir. İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. 2019-cu ilin ilk rübündə bu sahədə müvafiq tədbirlər görülmüş, təsərrüfat subyektlərinə 108 min 800 manat kredit verilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 38,4 faiz çoxdur.

Cari ilin ilk rübündə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 1 milyon 969 min 800 manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da bir il öncəki göstəricidən 50,7 faiz çoxdur.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər və bu sahənin daim diqqətdə saxlanılması iqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafına yeni imkanlar yaratmaqdadır.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2019-cu ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 2,4 faiz çox, yəni 28 milyon 530 min 100 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

*Kənd təsərrüfatının ümumi məhsulu, min manat*




Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırmış, 2019-cu ilin ilk rübündə muxtar respublikadan 12 milyon 122 min 900 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

Meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, Kəngərli rayonunun Yurdçu kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi hazırda davam etdirilir.

Kəngərli rayonunun Qabıllı kəndində subartezian quyusunun tikintisi başa çatdırılmış, Şərur rayonunun Danyeri kəndində nasos stansiyasının tikintisinə başlanılmışdır.

Meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində də tədbirlər görülmüş,

*Ardı 2-ci səhifədə*

cari ilin ilk rübündə 107,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 63 min ağac və gül kolu əkilmişdir.

Muxtar respublikada ətraf mühitin mühafizəsi məqsədilə Sədərək rayonunda Su monitorinq laboratoriyası yaradılmışdır.

### Nəqliyyat, informasiya-rabitə və energetika

Artan əhali tələbatına uyğun olaraq muxtar respublikada müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

2019-cu ilin yanvar-mart aylarında Naxçıvan şəhərdaxili, Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır.

Culfa-Ordubad magistral avtomobil yolunun, Şahbuz rayonunun Badamlı kəndində avtomobil yolunun yenidən qurulması davam etdirilmiş, Şərur rayonunun Şərur şəhərinə giriş, Muğanlı və Muğancıq Mehrab, Babək rayonunun Kültəpə və Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində avtomobil yollarının yenidən qurulmasına başlanılmışdır.

Şahbuz şəhərində aviakassa binasının tikintisi başa çatdırılmış, Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının yenidən qurulması, Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi davam etdirilir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə cari ilin yanvar ayında Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutunda gecə reysləri fəaliyyətə başlamışdır.

Culfa stansiyasında İstismar Vaqon Deposunun tikintisi, Park "V" İdarəetmə Mərkəzinin və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binalarının əsaslı təmiri davam etdirilir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada nəqliyyat sektorunda 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2,3 faiz, sərnişin daşınması 1,8 faiz artmışdır. Yük və sərnişin daşınmasından, bütövlükdə, 11 milyon 900 min manat gəlir əldə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 2 faiz çoxdur.

2019-cu ilin ilk rübündə muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafı diqqətdə saxlanılmış, 2 poçt binası yaradılmış, 2 avtomat telefon stansiyası quraşdırılmışdır. Culfa rayonunda rabitə evinin yenidən qurulmasına başlanılmışdır.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 2018-ci ilin müvafiq dövründəki göstəricini 3,3 faiz üstələyərək 13 milyon 102 min 200 manat olmuşdur. Ümumi xidmətlərin 79,6 faizi mobil rabitənin payına düşmüş, mobil rabitə xidmətlərinin dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz artmışdır.

Muxtar respublikada ucuz enerji istehsalı sahələrinin yaradılması və enerji sistemini daha da müasirləşdirmək məqsədilə Kəngərli rayonunda 2 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmiş, 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının və Babək Rayon Elektrik Şəbəkəsinin inzibati binasının tikintisi hazırda davam etdirilir.

Muxtar respublikada 7,6 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 2 transformator yarımstansiyası quraşdırılmışdır.

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının tikintisi başa çatdırılmışdır.

1 aprel 2019-cu il tarixə muxtar respublikada 86 min 604 əhali abonenti təbii qazla təmin olunmuşdur.

Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz, Babək rayonunun Babək qəsəbəsində isə smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir.

### Sahibkarlıq fəaliyyəti və məşğulluq məsələləri

Muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir.

2019-cu ilin yanvar-mart aylarında muxtar respublikada sahibkarlara 5 milyon 909 min 800 manat kreditlər verilmişdir. Kreditlərdən 2 milyon 530 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 3 milyon 379 min 800 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövrdə 10 hüquqi və 1334 fiziki şəxs qeydiyyata alınmışdır.

Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

2019-cu ilin yanvar-fevral aylarında orta aylıq əməkhaqqının məbləği 433,2 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 3,1 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır.

2019-cu ilin birinci rübündə muxtar respublikada 1173 yeni iş yeri yaradılmışdır ki, bunun da 1162-si və ya 99,1 faizi daimi iş yerləridir. Əmək bazarının tələblərinə uyğun olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, aşpaz köməkçisi, dərzi, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər peşələri üzrə 66 nəfər kurslara cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə ixtisas təhsili müəssisələrində 624 nəfər müxtəlif peşələrə yiyələnmişdir.

### İstehlak bazarı

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.

2019-cu ilin ilk rübündə muxtar respublikanın istehlak bazarında əhaliyə 352 milyon 356 min 800 manat dəyərində istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Ordubad rayonunun Dəstə kəndində xidmət mərkəzinin tikintisi, Şərur rayonunun Kərimbəyli kəndində xidmət mərkəzinin yenidən qurulması başa çatdırılmışdır.

Şərur rayonunun Alışar, Qışlaqabbas və Yeni Havuş kəndlərində xidmət mərkəzlərinin tikintisi davam etdirilmiş, Muğanlı və Muğancıq Mehrab, Babək rayonunun Kültəpə və Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində xidmət mərkəzlərinin tikintisinə başlanılmışdır.

### Xarici ticarət, bank işi və sığorta fəaliyyəti

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

2019-cu ilin ilk rübündə muxtar respublikanın xarici ticarət dövriyyəsi 65 milyon 956 min 200 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 53 milyon 423 min 900 ABŞ dollarını ixrac, 12 milyon 532 min 300 ABŞ dollarını idxal təşkil etmiş və 40 milyon 891 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Bank sektorunun inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası muxtar respublikada elektron ödəniş infrastrukturunun inkişafına, maliyyə vəsaitləri dövriyyəsinin sürətləndirilməsinə, nağd ödənişlərin azalmasına səbəb olmuş, 2019-cu ilin yanvar-mart aylarında məxaricdə emissiyanın xüsusi çəkisi ötən ilin müvafiq dövrü ilə müqayisədə azalaraq 30,6 faiz olmuşdur.

1 aprel 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 80772-yə çatmışdır ki, bunun da 71640-ı və ya 88,7 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-mart aylarında açılmış 4408 bank hesabının 4378-i aktiv hesablar olmuşdur.

1 aprel 2019-cu il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1272-yə çatmışdır.

Muxtar respublikada sığorta sisteminin inkişafı istiqamətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə 2 ədəd səyyar xidmət avtomobili verilmiş, Kəngərli Rayon Dövlət Sığorta Agentliyi üçün müasir iş şəraiti yaradılmışdır. Muxtar respublikada sığorta növləri üzrə daxilolmalar cari ilin ilk rübündə 1 milyon 392 min 300 manat olmuşdur. Bir il öncəyə nisbətən könüllü sığorta ödənişləri 1,5 faiz artmışdır.

### Təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində 2019-cu ilin ilk rübündə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin binasının yenidən qurulması davam etdirilmişdir.

Şərur rayonunun Kərimbəyli kəndində 270, Ordubad rayonunun Dəstə kəndində 900 şagird yerlik məktəb binalarının tikintisi başa çatdırılmış, Naxçıvan şəhərində 5 nömrəli tam orta məktəbin binasının yenidən qurulması, Şərur rayonunda Yeni Havuş və Xətai kəndləri üçün məktəb binasının tikintisi davam etdirilir.

Şərur rayonunun Xələc, Babək rayonunun Kültəpə və Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində məktəb binalarının tikintisinə, Şərur rayonunun Muğanlı və Muğancıq Mehrab, Ordubad rayonunun Vənənd kəndlərində məktəb binalarının yenidən qurulmasına başlanılmışdır.

Naxçıvan şəhərində 200 yerlik 2 nömrəli körpələr evi-uşaq bağçası binasının tikintisi başa çatdırılmış, Ordubad rayonunun Vənənd kəndində uşaq musiqi məktəbi binasının tikintisinə başlanılmışdır.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində Şərur rayonunun Kərimbəyli və Ordubad rayonunun Dəstə kəndlərində həkim ambulatoriyası binalarının tikintisi, Şərur Rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri başa çatdırılmışdır.

Şərur rayonunun Muğanlı və Məmmədsabir, Babək rayonunun Kültəpə, Ordubad rayonunun Vənənd kəndlərində həkim ambulatoriyası binalarının tikintisinə başlanılmışdır.

"Nəxşicahan-Med" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə yeni exokardioqrafiya avadanlığı təqdim olunmuşdur.

Sosial layihələr çərçivəsində 2019-cu ilin ilk rübündə yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 328 cərrahi əməliyyat aparılmışdır.

Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 25 yanvar tarixli Sərəncamına uyğun olaraq 2019-cu ildən Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Bundan əlavə, 2020-ci ildən etibarən icbari tibbi sığorta sisteminin Naxçıvan Muxtar Respublikasının bütün ərazisində tətbiqinə imkan verəcək hazırlıq işlərinin görülməsi, tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 mart tarixli Fərman imzalamışdır.

2019-cu ilin birinci rübündə muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 130 min 414 manat ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Bundan əlavə, ötən dövrdə muxtar respublikada 1 şəhid ailəsinə, 5 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş 1 nəfərə, ümumilikdə, 8 ailəyə yeni mənzillər, hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə isə minik avtomobili təqdim edilmişdir. Bundan əlavə, sağlamlıq imkanları məhdud iki şəxs üçün fərdi yaşayış evlərinin tikintisi hazırda davam etdirilir.

Hesabat dövrünün sonuna 223 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində, 9 nəfərə Ahıllar evində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 87 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 79 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 61 nəfər sanatoriya və müalicə pansionatlarına yollayışlarla, 117 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuş, 26 nəfərə protez-ortopedik xidməti göstərilmişdir. Bu dövrdə 4 nəfərin ölkə daxilində müalicəsinə, 8 nəfərin isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik olunmuşdur.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmişdir. Muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3,3 min nəfər artaraq 1 mart 2019-cu il tarixə 456,5 min nəfər olmuşdur.

Muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılmışdır. Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2019-cu ilin ilk rübündə pensiya və müavinətlərin ödənilməsinə 36 milyon manata yaxın vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,1 faiz çoxdur.

Muxtar respublikada idmanın da inkişafı diqqətdə saxlanılmış, infrastrukturun yenilənməsi istiqamətində İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin əsaslı təmirinə başlanılmışdır.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2019-cu ilin ilk rübündə Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilmiş, Naxçıvan şəhərində Cəmşid Naxçıvanskinin ev-muzeyinin yenidən qurulması davam etdirilmiş, Şərur şəhərində Təqaüdçülər Klubunun yenidən qurulmasına, Kəngərli rayonunda Şahtaxtı hamamının bərpasına başlanılmışdır.

Kəngərli rayonunun Qıvraq qəsəbəsində istirahət parkının, Naxçıvan şəhərində Naxçıvançay sahilində bulvarın yaradılması hazırda davam etdirilir.

Naxçıvan şəhərində məscidin tikintisi davam etdirilmiş, Kəngərli rayonunun dini icmasına xidməti avtomobil təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın icrası istiqamətində müəyyən tədbirlər keçirilmiş, təqvim üzrə digər tədbirlərin icrası istiqamətində işlər davam etdirilir.

Muxtar respublikada turizmin inkişafı istiqamətində tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın, "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" 2018-ci il 29 noyabr tarixli Sərəncamının icrası, Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi görülən işlərin davamlılığının təmin edilməsinə geniş imkanlar yaratmaqdadır.

2019-cu ilin ilk rübündə muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 99 min 644 turist gəlmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur.

### Hüquq-mühafizə orqanları ilə iş

Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və ixtisaslı kadrlarla təminatı tədbirləri davam etdirilir.

2019-cu ilin yanvar-mart aylarında Sədərək rayonunda Sədərək sərhəd gömrük-buraxılış məntəqəsinin tikintisi davam etdirilmişdir.

Muxtar respublikada daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılmışdır. Təhsil müəssisəsi üçün yeni məktəb binasının tikintisi hazırda davam etdirilir.

Aparılan təhlillər göstərir ki, muxtar respublikada qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün həyata keçirilən tədbirlər davamlı və dinamik inkişafa, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yeni imkanlar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsi***

## Naxçıvanın Bakıdakı daimi nümayəndəliyində dahi rus şairi İvan Krılovun 250 illiyinə həsr edilən kitabla tanışlıq olub




*Dünən Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyində muxtar respublikanın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində dahi rus şairi, dramaturqu, tərcüməçisi və təmsilçisi İvan Andreyeviç Krılovun 250 illik yubileyi ilə əlaqədar çap olunmuş kitabla tanışlıq tədbiri keçirilib.*

Daimi nümayəndəliyin kollektivinin iştirak etdiyi tədbirə kitabın müəllifi publisist-politoloq Reyhan Mirzəzadə dəvət olunub.

Daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxışında qeyd edib ki, ədəbi əlaqələr xalqlar arasında dostluğun bir rəhnidir. Mütərəqqi rus ədəbiyyatı dünya mədəniyyəti xəzinəsinə böyük dühalar, klassiklər, zəngin və nadir sənət nümunələri bəxş edib. Tarixən zəmanəni doğru-dürüst əks etdirərək bədii yaradıcılığın xalq taleyi ilə sıx əlaqəsi naminə mübarizədə qabaqcıl rus yazıçı və şairlərinin böyük rolu olub. Fəlsəfi, ideya-tərbiyəvi əhəmiyyəti ilə həm xalqın tarixi inkişaf mərhələsinin, həm də müasir dövrün tələbləri mövqeyindən çıxış edən və gələcək nəsillərə faydalı irs olan bu bəşəri ədəbiyyat bütün dünyada sevilə-sevilə oxunmaqda, öyrənilməkdədir. Çünki təqdim etdiyi gerçəkliyə müstəsna dərinliklə nüfuz edən rus ədəbiyyatı vətəndaş cəsarəti, xəlqilik, milli iftixar, vətənpərvərlik ruhu ilə özünəməxsus şöhrət qazanıb. Azərbaycan və rus xalqları, görkəmli ədəbi simaları arasındakı böyük və sədaqətli dostluğun tarixi isə silinməz və əbədidir.

"Həmişə olduğu kimi, bu gün də Naxçıvanda çoxsaylı oxucuların rus ədəbiyyatına, rus klassiklərinin yaradıcılığına böyük marağı var. Xüsusilə gənc nəsil onları daha böyük həvəslə, sevgi ilə oxuyur", – deyən Bəxtiyar Əsgərov qeyd edib ki, Naxçıvanda Ali Məclisin Sədri cənab Vasif Talıbovun birbaşa diqqəti və qayğısı ilə çap edilən kitablar,



həmçinin rus dahiləri haqqında son aylarda işıq üzü görmüş hər bir kitab əhəmiyyətli hadisə kimi qəbul olunur. Bu baxımdan müəllif Reyhan Mirzəzadənin bundan əvvəl qüdrətli rus zəka sahibləri Çexov, Qorki, Mayakovski, Makarenko, Qriboyedov və başqaları haqqındakı geniş tədqiqat yazıları onun Naxçıvanda çap olunmuş "Rus klassikləri haqqında" kitabında, böyük pedaqoqlar Uşinski, Çernyayevski, Suxomlinski, Makarenko haqqındakı yazıları 10 min tirajla yayımlanan "Pedaqoji fikir tarixindən" kitabında əksini tapıb. Onun Lev Nikolayeviç Tolstoyun 190 illiyinə, şair-diplomat Aleksandr Sergeyeviç Qriboyedovun həyat və fəaliyyətindən bəhs edən yazıları isə ayrıca kitab kimi çap olunub, ölkəmizdə, o cümlədən Naxçıvanda geniş ictimaiyyətin diqqətinə çatdırılıb.

Daimi nümayəndəliyin rəhbəri bildirib ki, Reyhan Mirzəzadənin "A.S.Qriboyedov: şair-diplomat" kitabı, Uşinski, Çernyayevski, Suxomlinski haqqında məqalələrinin yer aldığı "Pedaqoji fikir tarixindən" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilən "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilib və hazırda geniş mütaliə və müzakirə olunur.

Bəxtiyar Əsgərov deyib: "Böyük təmsilçi Krılov haqqında işıq üzü görən bu kitab da çox maraqlıdır. Rus tənqidçi və ədəbiyyatşünası V.Q.Belinski haqlı olaraq qeyd edib ki, Krılov bizim ədəbiyyatımızın namusu, şərəfi və şöhrətidir. Düşünürəm ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr edilən bu kitab oxucuları rus ədəbiyyatının "namusu, şərəfi və şöhrəti" ilə yaxından tanış edəcəkdir".

Sonda müəllif Reyhan Mirzəzadə Naxçıvanda çap olunan bütün kitabları ilə bağlı hədsiz sevinc hissləri yaşadığını, bundan qürur və fəxarət duyduğunu bildirib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını ifadə edib. Naxçıvan oxucularına minnətdarlıq edən müəllif R.Mirzəzadə bu ulu diyarın ona böyük ruh aşıladığını, xüsusilə Naxçıvanda nəşr edilən kitablarının hər dəfə ona daimi nümayəndəlikdə xüsusi təqdim edilməsindən mənəvi güc aldığını və bundan sonra da mövzunu həvəslə davam etdirəcəyini bildirib.

***AZƏRTAC***

*23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür*

## Kitab hər bir xalqın mənəvi sərvətidir




*1995-ci il noyabrın 15-də YUNESKO Parisdə keçirilən 28-ci sessiyasında aprel ayının 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir. Azərbaycan Respublikasında 1997-ci ildən hər il aprel ayının 23-ü "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü" kimi qeyd olunur. Azərbaycan həm də 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvüdür.*

Kitab çapının meydana gəlməsindən əsrlər ötsə də, bu gün də mənəvi və əqli sərvətlərimizin nəsildən-nəslə ötürülməsində kitablar əvəzsiz vasitədir. Təsadüfi deyil ki, kitabın meydana gəlməsi bununla bərabər müəlliflik hüququnun yaranmasına da səbəb olmuşdur. Orta əsrlərdən başlayaraq şairlərimiz öz əsərlərinin sonunda adlarını, ləqəblərini işlətməklə müəlliflik hüquqlarının ilkin formasını yaratmışlar. Əslində, xalqımız çoxəsrlik müəlliflik hüququ ənənələrinə malikdir. Belə ki, "Kitabi-Dədə Qorqud" dastanının hər boyunda Dədə Qorqudun hadisələrin sonunda gəlib boy boylaması, soy söyləməsi, əslində, bir növ bu dastanlara Dədə Qorqud möhürünün vurulması kimi başa düşülməlidir.





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin, milli-mənəvi dəyərlərimizin, o cümlədən kitab nəşri və müəlliflik hüquqlarının qorunması sahəsində ardıcıl tədbirlər görmüşdür. Ulu öndərin qayğısı ilə Azərbaycanda mətbəə və nəşriyyatlar yenidən qurulmuş, kitab nəşri ilə əlaqədar nəşriyyatların maddi-texniki bazası yaxşılaşmış, yaradıcı insanlara qayğı və diqqət artırılmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə ümummilli liderin rəhbərliyi ilə kitab nəşri və müəlliflik hüququ sahəsində zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1998-ci ildə "Kitabxana işi haqqında", 2000-ci ildə "Nəşriyyat işi haqqında", 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüququ qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi bu sahənin inkişafına öz təsirini göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları, eləcə də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 6 sentyabr tarixli Fərmanı müəllif hüquqları sahəsində uğurlu və sistemli tədbirlərin həyata keçirilməsinə səbəb olmuşdur. Bu gün xalqımızın tarixi, mədəniyyəti, folkloru, ədəbiyyatı, musiqisi, muğamları, yallıları, memarlığı, milli mətbəxi, geyimləri, mədəni irsi haqqında bir-birindən maraqlı kitablar nəşr olunur, məqsədyönlü tədbirlər həyata keçirilir. Xalqımızın min illər boyu yaratdığı zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Ötən il YUNESKO-nun Təcili Qorunma Siyahısına salınmış "Tənzərə" və "Köçəri" yallıları bu qədim və nadir sənətin də xalqımıza məxsusluğunun bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından böyük nailiyyətdir.

Naxçıvan Muxtar Respublikasında da kitab nəşrinə, müəlliflik hüquqlarının qorunmasına böyük diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə hesablanıb. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurulmuş və burada elektron kitabxana sistemi istifadəyə verilmişdir.

Qədim diyarımızın təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davam etdirilir. Naxçıvan Dövlət Universitetində, Naxçıvanşünaslıq Mərkəzində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanalar istifadəyə verilmişdir. Məhdud fiziki imkanlıların mütaliəsi məqsədilə lazımi şərait yaradılmış, onlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmişdir.

Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır.




Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağını artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan xanlığı", "Naxçıvan tarixi atlası", "Naxçıvan folkloru", "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi", "Naxçıvan-Şərur el yallıları", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları", "Naxçıvan tarixi" çoxcildliyi, "Gülüstan türbəsi" və başqa kitablar tariximizi və milli dəyərlərimizi öyrənmək üçün əvəzsiz elmi mənbələr olmaqla yanaşı, həm də ulu babalarımızın min illər boyu yaratdıqları irsə müəlliflik hüququmuzu göstərir.

Gənc nəsildə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nın təsdiq edilməsi təkcə qədim diyarımızda deyil, ölkə ictimaiyyəti, tanınmış ziyalılar tərəfindən də rəğbətlə qarşılanmışdır. Siyahıda adları qeyd edilən kitablar yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə, tarixi keçmişə, milli kökə bağlılığına və siyasi dünyagörüşünün möhkəmləndirilməsinə, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsinə xidmət edir.

Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin xətti ilə son on ildə hazırlanan "Dünyanın bəzəyi", "Uşaqlar və günəş", "Təmsillər", "Şeir və hekayələr", "Şeirlər", "Poema və pyeslər", "Xoş baharlı Naxçıvanım", "Əlincəqala" və 3 kitabdan ibarət "Dünyaya pəncərə" adlı tərcümə kitabları da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kitab nəşrinə göstərdiyi qayğının daha bir ifadəsidir. Həmçinin son illər Yazıçılar Birliyi üzvlərinin mindən artıq kitabı nəşr olunmuşdur. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri***

# Bir bahar günü...
## (Esse)

*Bu günü lap çoxdan gözləyirdim. Kiçik çillə çıxıb, Boz ay girəndən, ardınca su, torpaq, yel çərşənbələri bir-birlərini əvəzləyib yerlərini oda verəndən, odun istisi ilə təbiətə bir hərarət hopandan, Novruzu – yeni günü, yeni həyatı qarşılayandan, ilk bahar yaşıl xalısını çəmənlərə, düzlərə sərəndən, yurdumuzda nazlı baharın ahəstə addımlarını, ətirli nəfəsini duyandan bir gün təbiətin bu gözəl çağı ilə üz-üzə dayanıb "söhbətləşmək" istəyirdim. Lakin bir qədər gözləyirdim ki, yaz çiçəkləri açsın, ağaclar yaşıl donunu geyinsin, bahar öz gözəlliyindən ətrafa yetərincə pay versin.*



Budur, artıq baharın hər gün bir yeniliyi ilə qarşılaşırıq. Cəmi bircə ayın içərisində gəl, baharın gətirdiyi gözəlliklərə bax. Dünən ağacların budaqlarındakı düymələr bir qədər sonra ağappaq çiçəklərə çevriləndə elimizin bu "utancaq gözəli" hüsnünü ağ kələğayısı ilə gizlətmişdi. Bir az sonra isə ağ örpəyini yaşılla əvəzləşdirib yaşmağını da aldı. Di gəl, gör onun üzünü. Qışda bir yandan baxıb kilometrlərlə uzaqları gördüyün halda, gəl bu yarpaqların arasından bir metr uzağı gör görək…

Torpağın bağrını yarıb yaşılını ellərə, çöllərə, düzlərə sərən çəmən necə də füsunkardır. Lap yaxında çəmənin yaşılı çox açıqdır, göz uzandıqca tündləşir, Günəşin zərrin şüaları altında parıldayır, dağların sinəsinə çatanda isə sanki buludlardan kölgə alıb qaraya çalır rəngi. Bu yaşıl çəmənə qısqanclıqdan Günəşin hərarətini hiss edər-etməz boy verən, azacıq yaz küləklərinə tab gətirə bilməyib yerindəcə bahar nəğməsi ilə rəqs edən incə ağ, sarı, qırmızı, mavi çiçəklərə bax. Artıq bu yaşılın üzərinə qıpqırmızı lalə örpəyini də sərib, nərgizlər buradan Günəşə boylanıb. Yolçunu yoldan edən, tamaşasına elləri çağıran çiçəklər… Ah, nə gözəl yurdumuz var. Bu dağlara, dərələrə, düzlərə örtük olan çəmənlərin içərisi tək güllərin-çiçəklərin məskəni deyil, həm də bol-bol nemətlərimizin məskənidir. O nemətlər ki yazın əvvəllərindən göyün gurlamasını, şimşəyin çaxmasını gözləyir. Bu anda babalarımızın da dediyi kimi, artıq yeməli olan onlarla bitkinin yığım mövsümü başlayır. Ta payızın sonlarında qar yerə düşənədək birbirinin ardınca bu yerin insanlarının ruzisinə çevrilirlər. Saymaqla bitərmi onların adı? Hansını deyim, arxların, kanalların kənarında erkən yazda torpağı çırtıb ətrini ətrafa yayan yarpızımı, bulaqların gözündən axan suyun Günəşin hərarətindən azacıq isinməklə ətraflarda gizlənən bulaqotuna yeni həyat verməsinimi? Toxumunu sanki Tanrının yurdumuza səpdiyi, yığmaqla bitməyən qazayağı, mərövcə, cıbırıq, yemliyimi? Yoxsa yurdumuza baharın gəlişinə baxmayaraq, dağların kölgəliklərində hələ də əriyib, istiyə təslim olmayan qarın altında bahar ömrünü yaşayan cacığı, çirişimi? Bu yerin dağının-daşının dilini bilən insanlarının qarı əlləri ilə kənarlaşdırıb cacığı, çirişi yığarkən bunun onlara hansı zövqü yaşatmasınımı? Hansından danışım? Çobanyastığının çəmənlərin içərisində nazındanmı, dağ nanəsinin, kəklikotunun tək bir yarpağını dərməklə ətrafa yayılan doyumsuz ətrindənmi? İnsan bilmir bu gözəl yurdun gözəlliklərinin hansından danışsın. Burda bahar bitmir ki... O sanki özündən əvvəl qışdan, özündən sonra isə payızdan bir ay da alıb "Tamaşama gəlin, gözəlliyimə, ruzimə-bərəkətimə baxın", – deyir.

Bahar gələndə ellər yurdumuzun tamaşasına gəlir. Hələ Naxçıvanın baharının sorağına xarici dövlətlərdən də çoxsaylı turistlər gəlir: Güllü-çiçəkli dağları, çəmənləri görmək, yazın bol oksigenli havasını ciyərlərinə çəkmək istəyənlər. Təbiətin qoynunda saatlarla vaxt keçirib, istirahət etmək, öz əlləri ilə göbələk, dərman bitkiləri dərmək istəyənlər. Bu zövqü yaşamaq üçün ta uzaqlardan gələnlər…



Bir bahar günündə dağların, çəmənlərin doyumsuz gözəlliyindən ayrılıb şəhərə üz tutduqda buradakı gözəllik də insanı öz sehrinə salır. İllər öncədən quruculuqla birgə boy atan yaşıllıqlar, gülkarlıqlar, dünənin fidanları, bu günün bir-birinə qol-boyun, bir-biri ilə çiyin-çiyinə dayanan, bir-birinə arxa, dayaq olan ağacları. Baxdıqca xəyal insanı xeyli əvvələ – blokadanın ilk illərinə aparır. Çarəsizlikdən öz əllərimizlə yurdumuza gəlməsinə sipər çəkdiyimiz neçə baharlara aparır. Elektrik enerjisinin, təbii qazın yoxluğundan həyətlərimizdəki, meşələrdəki, yol kənarlarındakı ağacları kəsib qışın soyuğunu dəf etdiyimiz illərə. İstəməyərək qarşıladığımız və zorla yola saldığımız bu qış, sanki baharı da gətirmirdi. Yurdumuzun bənzərsiz gözəlliyinə bir yamaq idi "təbiət qəbiristanlıqları". Biz bu "qəbiristanlıqlarda" baharsız baharı yaşayırdıq. Minlərlə ağacları itirdiyimizdən baharın gözəlliyini duya bilmədiyimiz kimi, adı dillər əzbəri çeşid-çeşid meyvələrimiz də yoxa çıxmışdı. Bazarların piştaxtaları meyvəyə həsrət qalmışdı…

Budur, nəinki həyətlərimizdə, bu gün yaşayış binalarının qarşısında, inzibati binaların ətrafında, yol kənarlarında iməciliklər yolu ilə əkilən və hər biri bar üstündə olan meyvə ağaclarının yenicə çiçəkdən çıxmış və budaqlarındakı saysız meyvə rüşeymləri məni xəyallardan ayırır, o illərdən bu illərə qaytarır. Bazarlarımızın, satış yarmarkalarının bol meyvəli piştaxtaları, könlün istəyən an istənilən yerdə əllərinlə dərə biləcəyin meyvələr, tikililərə, qurulub-yaradılanlara bir başqa füsun qatan göz uzandıqca sıralanan bəzək ağacları, rəngarəng güllər-çiçəklər o illərlə bu illərin müqayisəli görüntüsünü canlandırır gözlər önündə. O illərin insanları ilə bu illərin insanları da çox fərqlidirlər. Hər kəsdə yüksək əhval-ruhiyyə, üzlərdə təbəssüm var. O illərin əlləri qoyunlarında qalan insanları sanki illərdir, baharla yenilikçiliyi, yaradıcılığı bölürlər. Torpaqlarının əsl sahibinə çevrilən zəhmətkeş adamlar həm də qurur, yaradır, həyatımızın bütün sahələrində fəallığ göstərirlər. Yazın ilk günlərindən torpağa tər verib ondan zər alır, dolanışıqlarını qurur, bazarlarımızı min bir nemətlə təmin edirlər.

Budur, bir bahar günündə bahar təravətli gənclərimiz görünür küçələrdə. Dəstə-dəstə universitetlərə yollanırlar, rəfiqələri, dost, yoldaşları ilə şəhərimizdəki saysız parklarda gəzişirlər, əllərində kitablar kitabxanalardan çıxırlar, ənənəvi festivallarımızda fləşmob nümayiş etdirirlər. Bir qədər aralıda babalar-nənələr… Körpə fidanlarımızın əllərindən tutub məktəbə, bağçaya aparır, nəvələrini yaraşıqlı, təmiz, yaşıllıqlar içərisində olan parklarda gəzdirirlər.

Bir bahar günü… Gördüyüm bütün bu mənzərələr sanki "dil açıb danışır", deyir ki, hələ ömrünüzə neçə-neçə belə baharlar gələcək, sizi bundan da xoş günlərə aparacaq. Bax bu nənə-babalar olanlardan, keçənlərdən çox danışacaqlar nəvələrinə: o illərdən, bu illərdən… Dünənki baharlardan, bugünkü baharlardan… İnsan zəkasının, əməyinin gücü ilə diyarımızın hər yerində qışda da yaşanan bahar təravətli yeni günlərdən, növraqlardan söhbət açacaqlar. Bu baharsa yenicə qədəmlərini qoyub ana təbiətimizə. Özünə gündə bir sığal verən bu "ellər qızının" qarşıda hələ nə gözəlliklərini görəcəksiniz...

***P. S.** Təbiətin bu gözəli ilə "söhbətimi" təzəcə tamamlayırdım ki, baharın yerini aldığı qışın qısqanclığındanmı, ya da yaza sevdasındanmı, füsunkar çılğınlığının da şahidi oldum. Bir anın içərisində göyün gurlaması, şimşək çaxması ilə yağan güclü yağış yerini dağlıq rayonlarımızda qara verdi. Laləli, güllü çəmənlərin, çiçəkli ağacların üzərinə qar bəyaz örpəyini saldı. Sanki gözəllik üstünə yeni bir gözəllik əlavə olundu. Məncə, bu, yerini zamanın bahara verdiyi qışın qısqanclığı deyil, biz insanlar kimi qışın da bahara vurğunluğundandır. Bu vurğunluq təbiətin bir parçası olan insanların bu gözəlliyi yaşaması, bir də ki, baharın barı-bərəkəti olan qarın torpağa can verməsi üçündürsə, qoy elə həmişə qış bahara sevdalı olsun... Onsuz da yaz qarının gözəllikdən başqa heç bir zərəri yoxdur. Çünki baharın isti nəfəsi təbiəti belə gözlənilməz sevdalardan qorumağa yetərlidir...*

✍ **Mətanət MƏMMƏDOVA**

# Yer Kürəsi Günü qeyd olunub



***22 aprel – Beynəlxalq Yer Kürəsi Günü münasibətilə Ağbulaq İstirahət Mərkəzinə gedən yolda və Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində təmizlik aksiyası keçirilib.***

Gənclər ətraf ərazinin tullantılardan təmizlənməsində fəallıq göstərib, Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində Gənclər və İdman Nazirliyi tərəfindən hazırlanmış quş yuvalarını ağaclara bərkidiblər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 100 gənc iştirak edib. Sonda Ağ-



bulaq İstirahət Mərkəzində gənclər üçün çay süfrəsi təşkil olunub.

Beynəlxalq Yer Kürəsi Gününə həsr olunan təmizlik aksiyası muxtar respublikanın rayonlarında da keçirilib. Belə ki, Şərur, Ordubad, Şahbuz və Sədərək rayonlarında gənclərin iştirakı ilə "Gənclər bağı"nda, Culfa rayonunda Gülüstan türbəsi ətrafında, Babək rayonunda Heydər Parkında, Kəngərli rayonundakı Qarabağlar türbəsi ətrafında da bu cür tədbirlər təşkil olunub. Ətraf ərazilərdə təmizlik işləri aparılıb, yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma və budama işləri görülüb.

Ümumilikdə, muxtar respublikanın rayonlarında keçirilən aksiyalarda 250 nəfərə yaxın gənc iştirak edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında əlverişli ekoloji mühitin yaradılması məqsədilə ardıcıl tədbirlər görülüb, dövlət proqramları qəbul edilib. Ötən dövrdə bu sahədə həyata keçirilən tədbirlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.

Bu gün muxtar respublika ərazisində təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Meşələrin qorunması ilə yanaşı, yeni yaşıllıqların salınması istiqamətində də mühüm işlər görülür. İməciliklərin keçirilməsi, təbiətin, yaşıllıqların qorunması və bərpası işlərinə diqqətin artırılması nəticəsində muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Güləş birinciliyinə yekun vurulub



***İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər (2002-2004-cü illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 10 çəki dərəcəsi üzrə 40-dan çox idmançı öz qüvvəsini sınayıb.

Dünya Güləş Birliyinin mövcud qaydalarına əsasən keçirilən yarışın yekununa gəlincə isə Tuncay Məmmədov (45 kiloqram), Uğur Məmmədov (48 kiloqram), Orxan Hacıyev (51 kiloqram), Hüseyn Əhmədli (55 kiloqram), Heydər Nəcəfov (60 kiloqram), Abbas Nəzərəliyev (65 kiloqram), Heydər Heydərov (71 kiloqram), Rəvan Bayramov (80 kiloqram), Qoca Əhmədov (92 kiloqram) və Nuran Vəliyev (110 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılar diplomlarla mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:** Uşaqlar neçə yaşına çatdıqda və hansı qaydada əmək müqaviləsi üzrə tərəf ola bilərlər?*

**Cavab:** Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının əmək qanunvericiliyinə əsasən on beş yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər. On beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### İtmişdir

Qasımov Vaqif Ələkbər oğlunun adına olan 374 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 279